19 noyabr 2008 10:34

**Azərbaycan Respublikası Mərkəzi İcra hakimiyyəti orqanlarının rəhbərlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Abbas Abbas oğlu Ələsgərov Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri;

Arif Xanoğlan oğlu Qaraşov Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəisi;

Arif Mikayıl oğlu Vəliyev Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri;

Arif Əhməd oğlu Məmmədov Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyasının direktoru;

Arzu Yusif oğlu Rəhimov Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin rəisi;

Ataxan Əvəz oğlu Paşayev Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinin rəisi;

Aydın Əli oğlu Əliyev Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri;

Elçin İsağa oğlu Quliyev Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi;

Hicran Kamran qızı Hüseynova Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri;

Hidayət Xuduş oğlu Orucov Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri;

İskəndər Hüseyn oğlu Çəndirli Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyinin direktoru;

Kamran Sultan oğlu İmanov Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin sədri;

Kərəm Əvəz oğlu Həsənov Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin sədri;

Qərib Şamil oğlu Məmmədov Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri;

Qüdrət Qəmbər oğlu Qurbanov Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının rəisi;

Nazim Hüseyn oğlu İbrahimov Azərbaycan Respublikasının Diaspor ilə İş üzrə Dövlət Komitəsinin sədri;

Ramiz Ayvaz oğlu Həsənov Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri;

Rüfət Cəbrayıl oğlu Aslanlı Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri;

Səlim Yanvar oğlu Müslümov Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun sədri təyin edilsinlər.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti.
Bakı şəhəri, 19 noyabr 2008-ci il.